**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akad. Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**HÜSEYN RZA NABATƏLİ OĞLU TAHİRİ**

# İSLAMDA VƏ XRİSTİANLIQDA DİNİ PLÜRALİZMİN ƏSAS TƏZAHÜR FORMALARI

**7214.01 - Dinin tarixi və fəlsəfəsi**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Sakit Yəhya oğlu Hüseynov**
Fəlsəfə üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **M.A.Balayev**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**M.S.H.Qasımova**
İlahiyyat üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Texniki Universiteti fəlsəfə və politologiya kafedrası

Dissertasiyanın müdafiəsi "_12__" "_06__" 2013-cü il tarixində saat ___-da AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda təşkil edilmiş FD. 01.151 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı şəhəri, H.Cavid prospekti 31.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "_____" "____________" 2013-cü il tarixində göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**Filologiya üzrə fəlsəfə doktoru** **Zenfira Ədhəm qızı Şıxəlibəyli**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Son dövrlərdə Qloballaşma və onun dinlə əlaqəsi müasir elmi tədqiqatların əsas mövzularından birinə çevrilişdir. Qloballaşmanın dinə üç əsas təsirini göstərmək olar: birincisi dini ayin və mərasimlərin yerinə yetrilməsində müəyyən dəyişikliklər baş verdikdə dində dəyişiklik yaranmasına səbəb olar. Belə olan şəraitdə dinlər öz spesifik etiqad və ayinləri əsasında reaksiya göstərirlər. Bu iddia öz təsdiqini ingilis din filosofu və ilahiyyatçısı Con Hikin fikirlərində tapır. O, sübut etməyə çalışır ki, tarixi inkişaf və qloballaşma fərz olunan bir dinin ilahi sistemində dəyişiklik yarada bilər. Çünki, dini həyat ilahi reallıqla əlaqə üçün zəruri bir meydandır.

İranlı elm adamı Seyyid Hüseyn Nəsrə görə tarixi inkişaf və qloballaşma dində dəyişiklik yaranmasına səbəb ola bilməz. Çünki bu yol Allah tərəfindən təsis edilmişdir. O, belə hesab edir ki, informasiya texnologiyasındakı inkişaf və mədəni əlaqələr yalnız dini nəzəriyyələrlə bağlı yeni yanaşma və şərhlər meydana çıxara bilər.

İkincisi, qloballaşma dinlər və dini cəmiyyətlər arasında qarşılıqlı əlaqənin yaranmasına səbəb olur. Bu əlaqələr nəticəsində məsihilik və hindu dini kimi bəzi dinlər öz ənənəvi inanclarına yeni təriflər vermək məcburiyyətində qalırlar. Halbuki, islam və yəhudilik kimi bəzi dinlər qloballaşmanı öz tarixi mövcudluqları üçün islahat amili hesab etmişlər.

Üçüncüsü, qloballaşma dini plüralizmlə bağlı müxtəlif fikirlərin meydana çıxmasına imkan yaratmışdır. Bu gerçəkliyin səbəbi dinlərarası əlaqələrdir. Məsələn, Con Hikə görə qloballaşmanın təsiri ilə dinlər bir-birlərinə yaxınlaşmışlar. Onun qənaətinə görə gələcəkdə dinlərin mədəni-tarixi sərhədlərinin qorunmasına ehtiyac olmaya bilər. Ona görə də ilahiyyatçılarımız özlərini qlobal cəmiyyətin vəziyyətinə uyğun olan qlobal ilahiyyat formasına hazırlamalıdırlar. Dinlərin monopolist və bəşəri inanclarını islah etmək lazımdır. Con Hik dini plüralizm tərəfdarı kimi dinlərin qloballaşmaya müqavimət göstərməməyinin tərəfdarıdır. Əksinə onlar qlobal ilahiyyatın mümkün modelini işləməlidirlər. Çünki dinlərin ayinlər, əxlaqi sistemlər kimi ortaq məqamları olmaqla yanaşı ortaq məqsədləri də vardır. Dinlər bu mənada qloballaşma prosesində pay sahibi olurlar. Yuxarıdakı deyilənləri nəzərə aldıqda dini plüralizm mövzusunun tədqiqi günümüz üçün aktuallıq kəsb etməkdədir.

Bundan başqa günümüzdə aktual olan məsələlərdən biri də Con Hikin dediyi kimi, qloballaşma ilə əlaqəli olaraq qlobal ilahiyyat formasının və ya

ideoloji dini plüralizm formasının mümkün olub-olmamağının araşdırılmasıdır.

Bu formada ortaya çıxacaq dini plüralizmə irad və nöqsanlar yönəldilə bilər. Dinlərin dini-mədəni sərhədlərini pozmadan dinlərin çoxluğunu təmin etmək olar. O mənada ki, “Haqq və Batil” mübahisələrinə yol vermədən dinlərin “Yardımlaşma” tezisinin imkanlarından istifadə etmək olar. Lakin Con Hikin nəzəriyyəsinin problemi ondan ibarətdir ki, “Qlobal ilahiyyat” və “Dini plüralizm” kimi məfhumlar Avropa fikir tarixinə məxsusdur. Müəllifə görə, Qərbdə xristian mütəfəkkirləri məsihiliyin mütləqliyi ideyasından hərəkətlə dinlər arası dialoqların aparılmamağını təbliğ edirdilər. Halbuki, müstəmləkə dövründən sonra məsihiliyin mütləq olmadığı və digər dinlərlə dialoqun zəruri olduğu ortaya çıxdı. Bununla əlaqədar bu gün Qərbdə Kantvell Smit, Con Hik və bu kimi şəxslər qloballaşmanın zahiri görüntülər əsasında yeniliyini təqdim etdilər.

Dini plüralizm düşüncəsi uzaq keçmişdən müxtəlif dinlərin mənsubları arasında mövcud olmuşdur. Məsələn, müsəlman mütəfəkkirlər arasında Matrudi, Qəzzali, İbn Ərəbi və Mövlana kimi alimlərinin düşüncəsində dini plüralizmə aid bəzi işarələrin olmasına şübhə etmək olmaz. Həmçinin qeyd edilən düşüncəni praqmatizm məktəbinin baniləri Vilyam Ceyms və Con Dyunun fikirlərində də müşahidə etmək olar. Çünki, praqmatistlərin fikrincə praktiki olaraq işə yarayan hər düşüncə etibarlıdır. Din də onların fikrincə insanın psixoloji sakitliyi üçün faydalı olduğuna görə etibarlıdır və onların arasında fərq yoxdur. Əlbəttə praqmatistlərin nəzəriyyəsi, Qəzzali, İbn Ərəbi və Mövlana düşüncəsi kimi irfani əsasa malik deyildir.

Hal hazırda dini plüralizm və dinlərin müxtəlifliyi məsələsinin öyrənilməsinin aktuallığlını şərtləndirən başlıca amil əlli ildən də az keçmişə malik olmasıdır. Buda doğrudur ki, məsələ yeni öyrənilsədə çox ehtimalki, bu nəzəriyyənin əsas mənşəyi protestant təriqətinin meydana gəlməsi ilə bağlıdır. Protestantlıq xristianlığın bir təriqəti olub, Martin Lüter və Jan Kalvin tərəfindən yaradılıb. Protestantlıqda əsas prinsip dinin şəxsi xarakter daşıması idi. Onlara görə din siyasət və ictimai işlərdən ayrıdır. Onların digər mühüm işləri dini kilsədən ayırmaq idi. Protestantlığın banilərinin fikrincə bizim dindarlığımız kilsəyə istinadən olmamalıdır və Allah ilə əlaqə yaratmaq istəyən kimsə əgər günah edərsə kilsəyə gedib, orada Allahına ibadət etməlidir.

XIX əsrdə dini liberalizm Şleyermaxer vasitəsilə gündəmə gətirildi. Dini plüralizmin əsas iddiaçısı yəni Con Hik onun fikirlərindən

təsirlənmişdir.[1] Şleyermaxer rasionalizmə qarşı çıxırdı. Çünki, liberalizm praqmatizmin məhsulu idi. Hobs, Lokk və Yum İngiltərədə XVII-XIX əsrlərdə yaşayan məşhur praqmatiklər idilər. Praqmatiklər rasionalizmə qarşı kəskin müxalif mövqeydə dayanırdılar. Bu ona səbəb oldu ki, dini liberalizm də rasionalizmə müxaliflik edib, din sahəsində ağıl yerinə dini təcrübəni və ya dini emosiyanı tətbiq etdi. Şleyermaxer deyirdi: "Biz əgər bir dinin haqq olub-olmamağını bilmək istəsək gərək həmin dinin insan üçün dini emosiya yaradıb yaratmadığını görək. Yəni O, dini liberalizm nəzəriyyəsinin banisi Con Hikin dediklərini bir növ təkrarlayırdı. Hikin fikrincə: din ona görə əhəmiyyət kəsb edir ki, insanın özünə əsaslanan həyatını Allaha əsaslanan həyata çevirir."[2]

Deməli hər hansı bir şəxs din, yəni mütləq varlığa arxalanmaq hissinə malik olduğuna inanır. Onun fikrincə dinin cövhəri nə dini inamlar sistemində və nə də digər zahiri hallarda, bəlkə sonsuz və vasitəsiz hissə qapılan insanın ruhunda gizlənir. [3]

Dini plüralizmin təzahürünün əsas zəminlərindən digər biri də ölkələrin əhalisinin bir-biri ilə əlaqələrinin genişlənməsi və xüsusilə Avropa ölkələrinə doğru inteqrasiya idi. Ölkələrin bir-biri ilə əlaqələri genişlənir və xüsusilə intibah dövrü və Avropada sənaye çevrilişinin başlanması ilə bu əlaqələr daha da genişləndi. Həmin proses kommunikasiya əsrinin başlanması ilə XXI əsrdə son həddə çatdı. Yəni başqa sözlə dünya kiçildi, zaman və məkan məsafələri daha da azaldı.

Hər halda əlaqələr artdıqca fərdlər çeşidli din və mədəniyyətlərlə üz-üzə qaldılar. Əvvəlcə Avropa öz sərhədlərindən kənara çıxanda qəfildən özgə din və mədəniyyətlərlə üzləşdi. Belə sual ortaya çıxdı ki, bu reallıqla, yəni din və mədəniyyətlərin çeşidliliyi ilə necə qarşılaşmaq lazımdır? Xüsusilə bu hadisə qnesoloji məsələ baxımından problem yaratdı. Eləcə də dinşünas alimlər, mədəniyyətşünaslar və bu sahənin ekspertləri özlərinə belə bir sual verməyə başladılar ki, digər dinlər onların dinləri ilə bir mühitdə yerləşməli yoxsa, onları yalançı və saxta dinlər həbsxanasına sürgün etməlidirmi?

Hazırkı dövrdə dini plüralizmin formalaşmasının ictimai səbəbi və ya daha doğrusu dini plüralizm bəhsinin kəskinləşməsinin əsas səbəblərindən biri dini fanatizmin mövcudluğudur. Dini fanatizm dindarlıq zəminində

---

[1] - Lənghavzen, Məhəmməd, İslam və dini plüralizm, Taha Mədəniyyət Müəssisəsi, 2000, s. 18

[2] -Peterson və Haysker, "Ağıl və dini inam", Tərhi No nəşriyyatı, 1998,s. 409

[3] - Lənghavzen, Məhəmməd, İslam və dini plüralizm, Taha Mədəniyyət Müəssisəsi, 2000, s. 19

meydana çıxan yeni məsələlərdən biridir və dünyada dinc birgəyaşayışa təhlükə törədir. Dini plüralizm məsələsi bir boşluqda gündəmə gəlmir. Bugün dünyada dini plüralizm digər dini meyl qarşısında yəni dini fanatizm qarşısında gündəmə gətirilir.[4] Dini fanatizm də tarix boyunca, xüsusilə hazırkı dövrdə böhran və ixtilaf yarada bilən amillərdən biridir. Həmin yaranacaq münaqişələrə həll yolları tapmaq dini plüralizm məsələsinin meydana çıxmasına zəmin yaratmışdır və dini plüralizmin bu baxımdan öyrənilməsi aktual problemdir.

Dini plüralizm fikrinin fəlsəfi dayağı fenomenologiya nəzəriyyəsi və ya Emanuel Kantın "Numen-Fenomen" anlayışıdır. Həmin nəzəriyyəyə əsasən numenlər və ya həqiqətlər, insanların idrakında formalaşan mənada yox, öz həqiqi mənasındadır. Beləki insan tarixi, dini, ictimai və cinsi məhdudiyyətin təsiri altıdadır.[5]

Hadisələrin öyrənilməsi məqamında insan həmin məhdudiyyətlərin təsiri altında olur. Real dünyada insanlar müxtəlif təsəvvürlərə malik olurlar və həmin təsəvvürlərlə reallığı öyrənməyə çalışırlar. Deməli, əgər reallığı vahid fərz etsək, zehində təsəvvür edilən reallıq çeşidli və plüralist mahiyyətə malikdir. Dini plüralizmin bu cür izah təzi onun qneseoloji əsasıdır.[6]

Xristianlıqda dini plüralizm düşüncəsinin üzə çıxmasının ən mühüm amili dini plüralizmin iman xarakterli mənşəyinin olmasıdır. Xristianların əqidəsində bəşərin qiyamət günündə qurtuluşu yalnız xristian dininə xas inanaclar üçün hesab edilmişdir. Ən azı qərb mütəfəkkirləri yanında dini plüralizmin ümumi məsələsi həmin məsələnin dərk edilməsi və qəbulunun məhsuludur. Yəni onlar başa düşdülər ki, qədimdə yalnız xristianlığın nicat vəd etməsinin iddia edilməsi sonralar ciddi fəsadlar yaradacaqdır. Həmin yanlış təsəvvürdən həqiqətən də ziddiyyət yarandı. Bu mənada ki, hamı üçün rəhmli olan Allah necə ola bilərdi ki, ancaq azlıqda qalan xristian dininə qulluq edənləri qurtuluşa layiq bilsin? Həmin ziddiyyətin xristian ilahiyyatında digər dinlərə münasibətin dəyişikliyi üçün bir "Kopernik çevrilişi" lazım gəlmişdir.[7] Bu məsələ xristian dini ekspertlərini məcbur etdi ki, din haqqında ilahi məhəbbət və yönəltmə, eləcə də bəşər vicdanı və ağlına uyğun olmayan şərh təqdim etsinlər.

---

[4] - M.Sədri "Dini plüralizm üzrə dəyirmi masa", "Kiyan" jurnalı, No28, s.6, 1995

[5] -Müctəhidi Şəbüstəri "Dini plüralizm haqqında dəyirmi masa", "Kiyan" jurnalı, No 28, s.4, 1995

[6] -Təzaqi Əhməd, "Dini plüralizm və dinlərin mahiyyətcə vəhdəti", "Kiyan" jurnalı, No 28, s.36, 1995

[7] - Hikk, "Qnoseologiya tərəzisində dini plüralizm", Fərhənge İslami nəşriyyatı,1999,s.175

Məsələyə islam yönündən yanaşıldıqda da islam düşüncə və fikrində plüralizmlə tanışlıq və ona inam gözə çarpır. Demək olmaz ki, bu mövzu ilk dəfə hər hansı bir filosof və alimin düşüncəsinin məhsuludur. Lakin islam mütəfəkkirlərinin yazılı əsərləri göstərir ki, onlar öz dövrlərində dini yumşaqlığın islam fiqhində və dinin özündə yaranmasına cəhdlər ediblər. Bu bir növ tolerantlıq təfəkkürünün dini mətnlərdə rüşeymi olmuşdur. Müəyyən şəxslər şəraitə uyğun bu məsələni qabartmışlar. VII-VIII əsrlərdə Yuhənna Dəməşqi dini tolerantlıq haqqında əsər yazmışdır. Müxtəlif din və təriqətlərin ümmətinin düz yola getməsi və ya bu yoldan sapması haqqında olan qayğılar səbəb olmuşdur ki, Qəzzali həmin məsələ ilə bağlı araşdırma aparsın. Qəzzali "Əlmənqəz minalzilal" [8] adlı əsərində, eləcə də digər əsəri "Feysəl əttəfrəqə beynəl islaməl zəndəqə"də digər dinlərin, o cümlədən xristianlıq dininin ümmətinin əksərinin Allahın rəhmətinə şamil ediləcəyini hesab edir.[9] O burada digər dinlərin ümmətinin əksəri və ya hamısının düz yolda olmamağı haqqında peyğəmbərin məşhur hədisinə işarə edərək, əsaslandırmağa çalışır. Livanın xristian alimi Corc Cordaq da plüralist mövqeyə malik idi. O "İmam Əli sovtəl edalət əlinsaniyyə" adlı əsərində Əlini haqq meyarı və ədalət nümunəsi hesab edir. Onun fikrincə islam da xristianlıq kimi haqdır və bəşəriyyəti qurtara bilər.[10]

Ona görə Con Hik belə düşünür ki, islam dini də qloballaşmaya məsihilikdə olduğu kimi reaksiya verməlidir. Lakin müasir islam mədəniyyətinin inkişafını göstərən faktlar bunun əksini göstərir. Əgər dini plüralizm nəzəriyyəsi bir növ qloballaşmanın nəticəsi hesab edilərsə, islam dini bu prosesə özünəməxsus şəkildə reaksiya göstərəcəkdir, yəni bu dinlə uyğunluq təşkil edə biləcək plüralizm yaradacaqdır. Qloballaşma şəraitində islam dini və onun dini plüralizm qarşısındakı mövqeyinin araşdırılması mühüm aktuallıq kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsəd və vəzifəsi, dini plüralizmin hansı əsaslara dayandığını və həmin əsasların elmi və dəlil baxımından möhkəmliyini, infrastrukturunu müəyyən etmək;

Dini plüralizm sahəsində sual çoxluluğun mümkün olub olmamağı məsələsi və dini mətnin necə oxunması məsələsini təhlil etmək;

Dini təcrübə və irfani apokalipsisi dini təlim və dini iddiaların əsaslandırılması üçün meyarı müəyyən etmək:

---

[8] Qəzzali,, "Əlmənqəz minalzilal", Əmir Kəbir Nəşriyyatı, 1983, s. 142

[9] - Qəzzalı, "Feysəl əttəfrəqə beynəl islaməl zəndəqə", Şərq Mətbəəsi, 1940, s. 210

[10] - Bu dövrdə iki qrup bir-birinə qarşı dayanmışdılar, biri müsəlmanlar, digəri Zəndiq firqəsi. Müsəlmanlar Peyğəmbərdən bir hədisdən istifadə etməklə inanırdılar ki, qurtuluşa şamil edilən qrupdurlar və qalanlar yolunu azmışlar.

Dini təcrübə və vəhy arasındakı fərqləri aşkar etmək;

Dini plüralizm tərəfdarlarının “Din dili” yanaşmasının dini plüralizm nəzəriyyəsinə uyğun olub-olmamağı məsələsinə aydınlıq gətirmək dissertasiyanın başlıca məqsədlərindəndir.

**Mövzunun öyrənilmə dərəcəsi**. Müasir dövrdə dini plüralizm nəzəriyyəsinin meydana çıxması dinin müqayisəli araşdırılması avropa tədqiqatçıları tərəfindən başladılmışdır. Bu dövrdə din tədqiqatçıları ibtidai dindən tutmuş inkişaf etmiş dinədək, eləcə də bəşəri dindən tutmuş vəhy dininədək (səmavi din) müxtəlif cəhətdən müqayisəli tədqiqatlar aparırdılar. Onlar dinlərin necə meydana gəlməsini, onların təlimlərini, şüarları, ortaq cəhətləri və hər birinin ümmətinin psixalogiyasına və əxlaqına necə təsir etdiyi müqayisə etdilər.

Müqayisəli dinşünaslıq tədqiqatında bəzi mütəfəkkirlər dini plüralizm əqidəsinə sahib olub, bütün dinlərə haqq verməyə başladılar. Bu dövrdə dini plüralizm nəzəriyyəsinin təsdiqi və ya rədd edilməsinə dair çoxlu əsərlər yazıldı.

Avropa fikir tarixində dini plüralizm ilə əlaqəli ilk tədqiqat alman protestant ilahiyyatçısı Ernest Totliçdir. O, 1923-cü ildə “The Place of Christianity Among The Word Religion” (Dünya dini arasında xristianlığın yeri ) adlı məqaləsində plüralist paradiqmanı cəsarətlə ifadə etməyə çalışdı. Daha sonra onun müasiri amerikalı filosof Vilyam Hokinq 1932-ci ildə nəşr etdirdiyi “Re-thinking Missions” (Missiyaları yenidən düşünmək) adlı monoqrafiyasında plüralist paradiqmanı qəbul etdiyini eln etdi. İngilis tarixçi Arnold Toyinbidə bu fikri dəstəklədi. Bu nəzəriyyəni inkişaf etdirən dini plüralizm sahəsindəki tədqiqatlar baxımından iki ən önəmli fikir adamı Vilfars Cantvel və Con Hikdir. Daha sonra Fritiş Şon və Seyyid Hüseyn Nəsr müxtəlif əsərlərində bu məsələyə fikir bildirmişlər .

İranda plüralizmin tarixi keçən əsrin ortalarına aiddir. Belə ki bu tədqiqatlarda plüralizm kimi terminlərdən istifadə edilmirdi. Çox uzaq olmayan keçmişdə ziyalılar öz əsərlərində dinlərin çoxluğunu gündəmə gətirirdilər. "Həqiqətin ayrılmasına dair" nəzəriyyənin banilərindən olan Keyvan Qəzvini plüralist idi. Hacı Şeyx Müctəva Qəzvini plüralizm fikrinə müxalifətdə olan alimlərdəndir ki, "Bəyan əl Forqan" əsərində Keyvan Qəzvininin əleyhinə mövqe tutmuşdur . [11]

Bu mübahisələr din çoxluğu bəhsini genişləndirdi. 1963-cü ildə Ratha Krişnan tərəfindən dini firqə və təriqətlər arasındakı ümumilik haqqında "Şərqdən Qərbə Din" adı altında kitab tərcümə edildi. Orada bildirilirdi ki, hər din və təriqət müəyyən dərəcədə haqq və həqiqəti əks

---

[11] Qəzvini Müctəba. Bəyan ul-Furqan .İntişarat, Vaiz Yəzdi. Ş.1370.celde əvvəl. S.47

etdirə bilər və qurtuluşa ümid bəsləmək olar . 1964-cü ildə "Tək Allahlığın" mərkəzi adlı kitab nəşr edildi. Orada bildirilirdi ki, bütün dinlərə bağlı olanlar, eləcə də səmavi dinlə tanış olmağa fürsəti olmayan kimsələr düz yola gəlib Allahın lütfündən faydalana biləcəklər .

Dinlər arasında ziddiyyət və münaqişə Əllamə Təbatəbainin də diqqətini cəlb etmişdi. O, yoxsullar nəzəriyyəsində dinin müxtəlif hallarını təqdim edildiyi halda onu dərk edə bilməyən və ya onlara dini biliklərin yaxşı təqdim edilməməyi üzündən dini maarifin dərkindən məhrum olan şəxslərin dini məsələsinin qəbul edilməsi məsələsini araşdırmışdı . Əllamə Təbatəbai alimlər üçün olan məsələni onların səviyyəsinə uyğun hesab etmirdi. Onların dindən anlayışı çox zəif olsa da, öz vəzifələrini yerinə yetirdikləri təqdirdə onlar üçün cənnətdə müəyyən yer təsəvvür edilir. Əllamə Təbatəbai, professor Anri Korbenin dediyi: "Bütün dinlər haqq olmuş və bir canlı həqiqətin arxasınca gedirlər" fikrinə cavab olaraq yazırdı: " Hər hansı bir şəxs vəya şəxslərə dini məsələlər və haqq, ədalət haqqında həqiqətlər təbliğ edilməmiş və onlara bu məsələlər çatdırılmamışdırsa islam beləlmajorinə son dərəcə tolerantlıq göstərir və onları “Yoxsul” adlandırır".[12]

Öz ömrünü ilahiyyat və dini maariflənməyə sərf edən Şəhid Mütəhəri özünün bir çox əsərlərində islam ilahiyyatını yeni kəlam üsulu ilə əsaslandırmağa çalışmışdır. Bəzi yeni islam üsulunun elm ilə zahirən uyğun olmamasını qərbin yeni ilahiyyatçıları kimi onların mənasını kinayə xarakterli və simvolik hesab etməyə çalışmışdır. O əsərlərində, o cümlədən "Məcmui asar" dini terminlərdən danışmış və dini plüralizm məsələsini də gündəmə gətirmişdi.

O, "islamdan başqa digər din də qəbuldurmu?", "Qəbul edilən din məhz islamdırmı?", "insanın bir dinin olması lazımdırmı və ya həmin dinin səmavi dinlərə aid peyğəmbərlərə xas olması lazımdır və həmin dinin hansı səmavi din olması fərz edilməzmi? Məsələn, yəhudilik, islam və xristianlıq olmalıdırmı?" Eləcə də "hər zaman haqq din bir dindən artıq deyildirmi? Suallarını qeyd etməklə dində yeni anlayış təqdim edərək çalışırdılar ki, islam dini və ehkamları haqqında rasional və yeni imic nümayiş etdirsinlər.[13] Dini plüralizm məsələsi Qərbdə gündəmdə olduğu kimi İranda ilk dəfə doktor Soruş tərəfindən gündəmə gətirilmişdir. Doktor Soruşu ilahiyyat məsələlərini yeni kəlam meyarları və dini plüralizm nəzəriyyəsi baxımından təhlil və təfsir edən ilahiyyatçı hesab etmək olar.

---

[12] Qaderdan Mulki, Mahmud Həsən.Kəndekav dər səvehaye pulralism.Muesise əndişe cavane. 1379. Tehran. S.20

[13] Muteherri Murtada. Ədl əl-ilhi. Enteşarate Sadra. Tehran. 1381. s.212

O, xüsusilə özünə "xas kəlam" nəzəriyyəsini həmin metodla əsaslandırırdı. Onun nəzəriyyəsini xülasə şəkildə belə qeyd etmək olar: dini mərifət (dindarların dindən əldə etdikləri) dəyişkən və nisbidir, lakin dinin prinsipi dəyişməz və sabitdir. Məsələn hər əsrdə dövrün elm və təhsilinin inkişafına uyğun olaraq dini bilik əvvəlki nəslin qavrayışı və biliyi ilə fərqlənir. Deməli, hər dövr və əsrdə həmin dövrün yeni elmi inkişafını nəzərə almaqla ziyalılar üçün yeni bilik və natica əldə edilir.

Məsələn, keçmiş əsrlərdə Quran təfsirçilərinin Quranda insanın yaradılışı haqqında başa düşdükləri ənənəvi fikirdir. Lakin həmin təfsirçilərin əldə etdiyi nəticə yeni elmi kəşflərin olmasından sonra daha əsas hesab edilmir. Deməli, yeni nəzəriyyə ilə yəni təkamül nəzəriyyəsinin meyarlarına uyğun məsələ həll edilməlidir.

Soruşun plüralist düşüncəsinə əsasən hər təriqət və dini məktəb müəyyən dərəcədə real həqiqətə malikdir. Beləki, bir din və ya xüsusi məktəb yüz faiz haqq, digər din və təriqətlər batil olsun. Doktor Soruşun bütün kitab və məqalələrində bu yeni əqidə və yeni kəlam əsaslandırmaları bir növ mövcuddur. Xüsusilə, "Şəriətin nəzəri daralması və genişlənməsi" və "Təfərücü süni" adlı iki kitabında daralma və genişlənmə haqqında əsas müddəalar üç prinsipdə izah edilir: şəriətin qavranılması (düzgün və ya birbaşa), tamamilə bəşər biliyindən faydalanmış və onunla qarışmışdı. Dini biliklə qeyri-dini bilik arasında davamlı mübadilə və dialoq bərqərar olmuşdur (qidalanma və geyinmə prinsipi). Əgər bəşər idrakı genişlənmə və daralmaya düçar olsa bizim şəriətdən anlayışımız da genişlənmə və daralmaya düçar olacaqdır. Bəşər idrakı (təbiət və varlıq haqqında bəşərin anlayışı: elm və fəlsəfə) dəyişiklik daralma və genişlənməyə düçar olar (dəyişilmə prinsipi) .[14]

Əlbəttə, Soruş bəzən öz əqidələrini bəyan etməkdə radikallıq edə bilər. Ona görə də İran daxilində ənənəvi dindarlar sırasında onun müxalifi çoxdur. Bundan başqa İranda dini plüralizm məsələsinə toxunan alimlərdən, "Kitab və ənənənin harmoniyası din haqqında rəsmi şərhin tənqidi" adlı əsər yazan Məhəmməd Müctəhidi Şəbüstəri, "Şeytan ayələri" fitnəkarlığının tənqidçisi və dini dözümlülük haqqında Yəzdi ilə mübahisə aparan Əyətəullah Mühacirani, "Plüralizmin əsasları", "Dinlər və plüralizm", "İman və şəkkaklıq", "Əqli tənqid və dini öhdəlik", "Elmdə obyektivlik və onun dini təlimlərlə əlaqəsi", "Dinşünaslıq" kimi məqalələrin müəllifi Əhməd Nəraqi, "Qurtuluşa aparan yol", "Sepehrcan" əsərlərinin müəllifi Mustafa Məlikianın adlarını çəkə bilərik. Adlarını yuxarıda sadaladığımız məqalə və əsərlərdə dini plüralizm məsələsi

---

[14] Soruş Abd ul-Kerim. Bəşəre təcrube nebeve. Nəşre fehrengi sırat. Tehran. 1378. s. 47

müxtəlif prizmalardan araşdırılmış lakin tam monoqrafik tədqiqat ortaya qoyulmamışdır.

Azərbaycanda bu mövzuda əsaslı şəkildə tədqiqatlar aparılmasa da bəzi müəlliflər məqalə və monoqrafiyalarında dini plüralizm məsələsinə toxunmuşlar. Bunlardan akademik Ramiz Mehdiyevin "Qloballaşma dövründə cəmiyyət və dövlət"[15] adlı məqaləsində, Səlahəddin Xəlilovun, "Sivilizasiyalararası dialoq"[16] və Allahşükür Paşazadənin "Qafqazda İslam"[17] adlı kitablarında dini plüralizm məsələsi müxtəlif aspektdən təhlil edilmişdir.

Mövzu Türkiyəli tədqiqatçılar tərəfindən bir çox yönü ilə araşdırılmışdır. Adnan Aslanın bu sahədəki çalışmaları çox əhəmiyyətlidir[18] Bundan başqa Mustafa Köylünün "Dini xaricedicilik" (Exclusivism) adlı məqaləsində xüsusi ilə xristianlıq baxımından dini ölçü ələ alınmaqda, mövzunun daha çox siyasi və mədəni ölçüsünə diqqət çəkilərək islam-xristianlıq əlaqələri araşdırılmaqdadır. Cafer Sadık Yaranın "Dini Əhatə edicilik" (Inclusivism) O biri dinlərə daha yaxın dayandığı bilinən əhatə ediciliyin xristian əhatə ediciliyini yumşaltma ehtiyacı qarşısında yaradıldığına toxunulmaqdadır. Tam və gerçək qurtuluşun İsa Məsihi yolu ilə reallaşdığı və onun qurtuluşunun o biri dinlərə mənsub insanları da əhatə etdiyi şəklində ifadə edilməkdədir. Mahmud Aydın tərəfindən qələmə alınan "Fikir tərzi Vilfered Cantvell Smitdə dini çoxluqluluq" adlı məqalədə çoxluluq yanaşması və V. Cantvell Smitin fikirlərinə ətraflı yer verilməkdədir. Smithin digər dinləri anlama və dialoq qurma mövzusunda qabaqda gələn adlardan biri olduğu ifadə edilməkdədir. Çoxluqluluğun hər dini ənənənin öz tərəfdarını qurtuluşa çatdırma nöqtəsində bərabər etibarlılığa sahib olduğunu nəzərdə tutan bir paradiqma olduğundan bəhs edilməkdədir.[19]

Rus dilli müəlliflərdən Y.P. Zuyevin "Религиозный плюрализм или уникальность истины" (Dini pülaralizm və yaxud vahid həqiqət)[20] adlı məqaləsi də xüsusi əhəmiyyətə malikdir.

---

[15] Mehdiyev. R Qloballaşma dövründə dövlət və cəmiyyət. hhtp://Azerbaijan.news.az. s. 1-13

[16] Xəlilov. S. Sivlizasiyalararası dialoq. (dəqiqləşdirilmiş 2-ci nəşr). "Adiloğlu" nəşriyyatı. Bakı, 2009.

[17] Paşazadə. A. Qafqazda İslam: Tarix və müasirlik. Azərnəşr. Bakı,1991. 224.s.

[18] Adnan Aslan. Batı perspekifinde dini çoğulculuk meselesi. İsalm Araştırmalar Dergisi. Sayı, 2 1998. s. 143-163

[19] F. Afra Eryılmaz. Sakarya Üniversitesi İlahiyat Fakültesi Dergisi, Cilt:XIII, Sayı: 23 (2011/1), s. 341-346

[20] Ю. П. Зуев. Религиозный Плюрализм или уникальность Истины. Кафедра государственно-конфессиональных отношений РАГС. Москва. 2003. С.121-130

Ümumiyyətlə adlarını sadaladığımız aşdırmalardan belə nəticə çıxartmaq olar ki, "Dini plüralizm" mövzusu günümüzdə aktualdır və hər bir tədqiqatçı məsələyə müxtəlif aspektlərdən yanaşmışdır. Aparılan araşdırmalar onu göstərir ki, bu məsələdə islamın mövqeyi çox az öyrənilmişdir və daha əhatəli tədqiqatlara ciddi ehtiyac vardır.

**Tədqiqatın elmi yeniliyi. .** Dissertasiya həm Azəbaycanda, həmdə İranda ilk monoqrafik tədqiqatdır. Dissertasiyanın yenlikləri kimi aşğdakıları göstərmək olar:

- Dini prüalizm araşdırılarkən islamın mövqeyi ön plana çəkilmiş,
- İlk dəfə olaraq Qərb tədqiqatçıları ilə birlikdə müsəlman alimlərinin mövqeyi öyrənilib müqayisəli təhlillər aparılmışdır,
- Dini plüralizm məsələsinə bir problem kimi, islami həll tapılmasına cəhd edilmişdir.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Dissertasiya din fəlsəfəsi, ümumilikdə fəlsəfə, dinşünaslıq, islamşünaslıqla bağlı araşdırmalarda, dinlə əlaqəli müxtəlif sahələrdəki araşdırmalarda nəzəri əhəmiyyətə malikdir. Bundan başqa dissertasiya fəlsəfə və ilahiyyat fakültələrində, islamşünaslıq kurslarındaköməkçi dərs vəsaiti kimi də istifadə oluna bilər.

**Tədqiqatın mənbəşünaslıq əsasını** ilkin islami mənbələr və müasir tədqiqatlar təşkil edir.

**İşin aprobasiyası.** Dissertasiya AMEA-nın akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda yerinə yetrilmişdir. Tədqiqatın əsas müddəaları nəşr olunmuş elmi məqalələrdə öz əksini tapmışdır

**Tədqiqat işinin quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri göstərilir, elmi yeniliyi nəzəri-metodoloji əsasları açıqlanır, elmi-nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir, aprobasiya və strukturu nəzərdən keçrilir.

Qeyd edildiyi kimi bugünkü mənada dini plüralizm Avropada Con Hik tərəfindən gündəmə gətirilərək, liberal protestantlıqdan bəhrələnmişdir. Lakin həmin düşüncənin meydana gəlməsi bir sıra əvvəlki zəminlər əsasında baş verdi və biz bu məsələyə dini plüralizmin mənşəyi adı altında işarə edirik.

Dini plüralizmin əsas yaranma səbəblərindən biri dünya səviyyəsində baş verən ibrətamiz hadisələrdir. Həmin hadisələrdən biri isə Avropada 30

illik təriqət müharibələri və dini reformasiya hərəkatıdır. Dini plüralizm Avropada meydana gəldi və biz onun oxşarına dünyanın heç bir yerində şahid olmuruq. Yəni əslində dini reformasiya hərəkatının təzahürü ilə, eləcə də Avropanın ikiyə bölünməsindən irəli gələn ziddiyyət və çəkişmələr katoliklər, Lüter və Kalvinin tərəfdarlarının qruplara ayrılması və baş verən müharibə plüralizmin yaranmasına şərait yaratdı. Belə ki, təkcə əhali deyil, hətta dövlətlər də bir neçə qrupa bölündülər. Bu isə tarixi plüralizmin zühurunun tarixi və təcrübi əsası idi.[21]

Eləcə də dini plüralizm nəzəriyyəsinin yaranmasının tarixi zəminlərindən biri də xristianlığı təbliğ etmək məqsədilə xristian missionerlərin digər ölkələrdəki fəaliyyəti ilə əlaqədardır. Xristianlıq tarixində dini missionerlər xristian ölkələrdən islam və hinduizmin yayıldığı ölkələrə gedib həmin dinlərin mənsublarını öz dinlərinə qarşı sədaqətini gördükdə onlarda digər dinlərdə də haqlılığın olması barədə təsəvvür yaratdı. Nəticədə, xristian missionerlər sırf xristianlığı təsdiq edib digər dinləri rədd etmə mövqeyindən bir az geri çəkildilər.

Dissertasiyanın I fəsli **“Plüralizm və dini plüralizmin tarixi”** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. Birinci fəslin birinci paraqrafı **“Plüralizm və onun əsas formaları”** adlanır. Dissertant plüralizm sözünün kəlmə və istilah mənasına diqqəti çəkərək bildirir ki, linqvistika baxımından plüralizm sözü, cəm və çoxluq mənasını daşıyan “Plural” sözündən alınmışdır. Terminologiya baxımından isə plüralizm çoxluq təriqəti və çoxluq meylli olmaqla müxtəlif sahələrdə, o cümlədən din fəlsəfəsi, əxlaq fəlsəfəsi, hüquq və siyasətdə müxtəlif yerlərə sahibdir. Onların hamısının ortaq nöqtəsi, birlik qarşısında çoxluğun tanınmasıdır.[22]

Bu paraqrafda plüralizmin fəlsəfi baxımdan izahı verilir və göstərilir ki, bu termin ənənələrarası əlaqələrin xüsusi nəzəriyyəsidir. Bununla əlaqədar ortaya atılan müxtəlif nəzəriyyələrdən belə nəticəyə gəlmək mümkündür ki, bu termin, sirli və əbədi həqiqətin müxtəlif təsəvvürlərini, reaksiyalarını və anlayışlarını əhatə edən dünyanın böyük dinlərinin əsas müddəalarını əks etdirir. Həmin nəzəriyyəyə iki alternativ nəzəriyyə yəni eksklüziv və inkluziv nəzəriyyələrini üzləşdirməklə də baxmaq olar.[23]

Fəlsəfi sistemlər və düşüncələr arasında, tarixi baxımdan bir növ metafizika hesab edilən "Fəlsəfi plüralizm" termini ilə rastlaşırıq.

---

[21] -Fərhadpur, M.Sədri, "Dini plüralizm üzrə dəyirmi masa", "Kiyan" jurnalı, No28, s.5 və 8, 1995

[22] - Rəbbani Qolpayiqani, Əli, Dini plüralizmin təhlili və tənqidi, Daneşe Müasir nəşriyyatı, 2000, s. 19

[23] - Mirçad Elyade, Dini tədqiqat, tərcümə: Xürrəmşahı, humanitar elmlər mərkəzi, 1996, Tehran.

Monizmin (monism) qarşısında dayanan həmin fikrə əsasən, reallığı bir ünsürlü və cövhərə əsaslanan (fərd cövhəri) hesab etmək olmaz. Varlığın mahiyyətini təşkil edən əsas ünsür iki və ya daha çox ünsürdür. Fəlsəfə tarixində metafizik sistemlərinin həmin təfəkkür əsasında qurulan müxtəlif məktəblər və cərəyanlarla qarşılaşırıq ki, bunlardan ən çox üç nümunəyə işarə edilir.

Demokritlə başlayan maddi plüralizmə (materialistic pluralism) görə, bütün dünyanın ilkin ünsürünü sadə və bəsit atomlar təşkil edir.[24] Atomlar bölünməyən və dəyişilməyən çox xırda maddi hissəciklərdir. Bu atomlar ölçü və formaca bir-biri ilə fərqlənir və səmada sərbəst hərəkət edirlər. Atomların bir-biri ilə toqquşması nəticəsində onlar birləşir və həmin birləşmədən əşya və nəhayət ümumi sistem yaranır. Demokrit və tərəfdarlarının əqidəsinə görə bizim xaric dünyada müşahidə etdiyimiz, o cümlədən rənglər, səslər və formalar birləşmiş atomlar və onlar arasında boş qalan fəzalardan başqa bir şey deyildir.

Maddi plüralizmin qarşısında Almaniyanın XVII əsr filosoflarından Leybnitsə aid bir nəzəriyyə “İdealist plüralizm” (Espripoalistic pluralism) yer alır. Həmin məktəbin tərəfdarlarının fikrincə ilkin ünsürlər həmin maddi atomlar deyildirlər, varlığın əsasını “Monadlar” təşkil edirlər.

Həmin ideyanın banisi Leybnistin nəzəriyyəsinə görə, monadlar bir-birindən asılı olmayan, zəifdən güclüyə müxtəlif dərəcələrə malik olan bəsit mövcudlardır. Bütün əşyalar monadlardan təşkil olunmuşlar. İnsanda ən ali monad onun ruhudur. Bütün sistemdə isə ən ali monad Allahdır.[25]

Əslində monada əsaslanan bu düşüncə tərzi materialist düşüncənin qarşısında reaksiya kimi hesab edilir.

Daha sonra tədqiqatda “İdrak plüralizm”i təhlil edilir. Bir şeyə aid mahiyyət xüsusi idrak sistemi ilə məhdudlaşa bilərmi? Əşyalar haqqında bizim bilik və idrakımızın çoxluq və çeşidliliyi qaçılmaz haldır. Lakin əşyanın müxtəlif cəhətlərinə aid müxtəlif nəticəyə gəlmə çoxluq (plüralizm) mənasındadırmı? Başqa bir sualla vahid əşyanın vahid cəhətinə aid müxtəlif nəticəyə gəlmək mümkündürmü?

İdrak plüralizmi minimum bir-biri ilə fərqlənən, lakin bir-biri ilə əlaqəli üç iddiada istifadə edilir. Bunlardan birincisi, təsviri idrak plüralizmi, ikincisi normativ idrak plüralizmi. üçüncüsü isə anlayışı qiymətləndirmə plüralizmidir.

---

[24] -Qeyd etmək lazımdır ki, buradakı materialist terminini son dövrlərdə Marksist məktəbdə istifadə edilən materializm deyildir. Hərçənd ki, emperik modeli və bütün sistemi maddənin ilkin ünsürünə əsaslandırmaq hər ikisində ortaq nöqtədir.

[25] -Bertrand Ressel,"Qərb fəlsəfə tarixi", Pərvaz nəşriyyatı, 1986, səh.804-821

Dissertant ictimai və siyasi plüralizmə işarə edərək yazır ki, ictimai plüralizm çoxluqların ictimai reallıq kimi qəbul edilməsidir. İctimai plüralizm, yəni müxtəlif irqi qruplardan və ya müxtəlif siyasi və dini həyata malik olan qruplardan təşkil edilmiş cəmiyyətdə dinc birgəyaşayışa inamdan ibarətdir. Plüralizmə aid təfsirlərdən biri insanın ictimai həyatı ilə bağlıdır. Bu mənada ki, bütün fərdlər bir cəmiyyətdə dinc yaşayıb bir-birinin hüquqlarına hörmət edə bilərlər və qarşılıqlı hörmətlə düşmənçilik və zülmdən xaric yaşayış təmin edə bilərlər. Onlar dözüm və səbir göstərərək, digər əqidəni daşıyan insanlarla tolerant şəkildə yaşaya bilərlər. Əslində bu yola getmə və birgəyaşayış müharibə və münaqişələrin qarşısını almaq məqsədi güdür.

Siyasi baxımdan plüralizmdən məqsəd isə dövlətdə bir-birindən müstəqil olan qrup və təşkilatlar arasında siyasi gücü paylaşdırmaq və nəhayət siyasət səhnəsində cəmiyyət fərdlərinin, marağını və iştirakını təmin etməkdən ibarətdir.

**“Qərbdə dini plüralizmin tarixi aspekti”** adlı birinci fəslin ikinci paraqrafında müəllif dini plüralizmin yaranma tarixini araşdırır.

Renessans dövrü insanın yenidən şüurlanması dövrü idi və yeni təfəkkürün formalaşmasında effektiv rola malik idi. Renessansdan sonra yeni elmi kəşflərdən irəli gələn dini və ənənəvi əqidələrə zidd nəzəriyyələr meydana çıxdı. Elmi inkişaf get-gedə din və dindarlığın meydanını daraltdı. Dini əqidələr qərbdə zəiflədi, yeni elm sahələrindən dini etiqadlar üçün maneələr yarandı.

Bu vəziyyətin davamında xristian ilahiyyatçıları təşvişə düşdülər. Yeni məsələlər və yeni cavablar tapmağa səy göstərdilər. Beləliklə Qərbdə yeni kəlam məsələlərinə başlanıldı və alimləri kafir elan etməyin yerinə şübhə və iradlar üçün həll yolu tapmağa çalışdılar və nəhayət dini islahata başladılar. XVI əsrin sonlarında dini islahat tərəfdarı olan Aras Mus (Aras Mouse) adlı xristian ilahiyyatçısı, tolerantlıq əsasında və yeni elmi nəticələrə əsaslanan fikirləri ilə xristian inamında dəyişiklik əmələ gətirdi.

Vatikan şurası digər dinlərlə dialoqu qəbul edir və yumşalmaya meyl edir. Bu şura bir rəsmi geri çəkilmədə bütün dinləri rəsmi şəkildə tanıyır, onların ümmətinə bərabər hörmət edirlər. 1845-ci ildə isə qeyri-dini əqidələrin sərbəst elan edilməsinə dair Papanın rəsmi bəyanatı elan edildi və əslində bu qərbdə dini plüralizmin başlanğıcı idi.

Bu fəslin sonuncu paraqrafında dini plüralizmin fəlsəfi aspektinə diqqət çəkən müəllif bildirir ki, Con Hik dini plüralizm nəzəriyyəsini bu günkü şəkildə tərtib edən və yayan ilk şəxsdir. Ona görə də, onun həyatını və düşüncələrini araşdırmaq bu nəzəriyyənin köklərinin öyrənilməsi və baş

vermə səbəblərini öyrənmək üçün ən yaxşı yoldur. Həmçinin xristian dininin digər dinlərin mənsubları üçün dinc birgəyaşayış məsələsində yaratdığı çətinliklərin və bunun nəticəsində dünyəvi mədəniyyətin yaranmasına səbəb olan prosesin araşdırılması plüralizmin kökünün aşkarlanmasında digər yollardan biri hesab edilə bilər.

Con Hikin dini plüralizminə görə dünyada mövcud olan bütün dinlər bir-birinə bərabərdirlər və onların hamısı müəyyən dərəcədə mütləq hərəkətdən faydalanmışlar. Lakin heç biri sırf haqq və kamil deyildir. Heç bir din digəri üzərində üstünlüyə malik deyil və dinlər arasında minimum bərabərlik mövcuddur.

Dini plüralizm əsasında böyük dini ənənələrin hər birində bir vahid dini reallıq, fərqli şəkildə təcrübə və dərk edilir. Bu ənənələr qurtuluş yollarını göstərir və nəticədə onların hər birinin şəriətinə riayət etmək onların qurtuluşu və düz yola gəlməsinə səbəb olar.

Müəllifə görə Con Hikin bu dini plüralizmi xristian ilahiyyatının əsasında qeyri-xristian dinlərə qarşı tolerantlıq və dözümlülüyü yaratmaq üçün göstərilən səydir. Ona görə də dini plüralizm yenilik və ya dini liberalizm formasında bir ünsürdür".[26]

**"Dini plüralizmin dərk olunmasında əsas anlayışlar"** adlı II fəsil doqquz paraqrafdan ibarətdir. Burada əsas olaraq dini plüralizmlə əlaqəsi olan bəzi anlayışlar müəllif tərəfindən geniş təhlil edilir. "Din cövhəri" adlı birinci paraqrafda məsələ ondan ibarətdir ki, din cövhəri və din sədəfi nədir? Dinin cövhər və sədəfi varmı? Əgər vardırsa dinin dəyəri onun cövhəri ilə əlaqədardırmı? Sədəfdən istifadə dinin cövhərinin qorunması üçün lazımdırmı yoxsa ondan kənarlaşdırılmalıdırmı?

Din cövhəri haqqında müxtəlif nəzəriyyələr gündəmə gətirən XIX əsrin xristian müəllifləri, adətən bir növ xristian təkamülünü müdafiə edirlər. Bu mütəfəkkirlərin fikrincə, din cövhərinin ən mükəmməl formasını dində tapmaq olar və digər dinlər xristianlığın ibtidai mərhələsində hesab edilirlər. Həmin fikir tərzi ilə razılaşan insanlar üçün islam problem yaradır. Çünki, islam xristianlıqdan sonra gəlmiş və daha kamildir. Xristian təfəkküründə din cövhərinə inanan alimlərin biri də W.İ. Hokingdir. O, dini intuisiyanı bütün dinlərin ortaq əsası hesab edir. Onun fikrincə hazırkı dövrdə dini həyatın bütün surətlərinin əsası olan din cövhərinin daha yaxşı anlaşılması üçün dərinləşmə prosesinə ehtiyac duyulur. Cövhərin dərk edilməsi asan iş deyildir. Lakin induktiv üsulla həmin məsələnin səbəbini, yəni təcrübələrin bir qrupunun nə üçün bir-birinə bağlı olmasını müəyyənləşdirmək olar. Genişləndirmə prosesi

[26] -Ləgnhauzen "İslam və dini plüralizm", Taha müəssisəsi, 2000, səh.11

müxtəlif dinlərin oxşar cəhətlərini göstərməklə din cövhərini müəyyən edən əməldən ibarətdir.[27]

İslam mütəfəkkirlərindən Cəvadi Amoli də dinin cövhəri və sədəfi haqqında nəzəriyyə üzərində çalışmışdır. O, nur surəsinin 35-ci ayəsinə iqtibas edərək dinin daxilini işıq və nura, dinin qabığını isə çırağa oxşadır. Əlbəttə onun fikrincə bu bənzətmə bəzi cəhətlərdən doğru, bəzi cəhətlərdən isə qeyri-mümkün kimi görünür.

Dinin bütünü nur və cövhərdir və zəif, eləcə də güclü dərəcə və mərhələlərə malik olduğu üçün din özü də güclü və zəif dərəcələrə malikdir. Dinin üsulu dinin güclü işığı kimi və dinin aspektləri dinin zəif nuru kimidir."[28] Onun təsəvvürünə görə əgər dinin üsulunu dinin cövhəri və dinin aspektlərini dinin sədəfi adlandırsaq, bilməliyik ki, dinin etiqad üsulu dini aspektlərin meydana gəlməsinə səbəb olur. Dini aspektlər isə dinin üsulunun mühafizə və güclənməsinə səbəb olur. Dinin cövhəri sabit və dəyişməzdir. Lakin dini aspektlər zamanın tələblərinə uyğun olaraq dəyişir. Din sabit və daimi məsələdir. Lakin şəriət çoxlu və dəyişkəndir.

Bir qrup alimlər dinin cövhərinin irfan olduğunu təsəvvür edir, əxlaqiyyat, doqma və hissləri ondan ayırıb, çalışırlar ki, insanı irfana doğru yönəltsinlər.[29]

**“Dini təcrübə və onun mahiyyəti”** adlı ikinci fəslin ikinci paraqrafında dissertasiyada göstərilir ki, dini təcrübə yeni xristian ilahiyyatçılarının baxışında ilahilik məqamına vasitəsiz agah olmaqdır.[30] Dini təcrübə şəxsin başına gələn və ondan xəbərdar olan hadisədir.

Dini təcrübənin mahiyyəti haqqında əsas nəzəriyyələrdən biri Vilyam Alstona (1921) aiddir. Onun fikrincə dini təcrübə idraki üsuldur. və hissi idraka oxşar quruluşa malikdir.

İqbal Lahurinin "batini təcrübə" adı altında qeyd etdiyi termin həmin nəzəriyyəyə uyğun gəlir.[31]

Alstonun fikrincə Allahın dərk edilməsi dini inama və təbii dünyaya hakim olan etiqada nisbətdə həmin hissi idrak olduğu kimi həmin idraki rolunu ifa edir. Hissi idrak bizim təbii dünyaya idrakımızın əsaslı özülü olduğu kimi, dini təcrübə də bizim Allahı tanımağımıza əsaslı özül sayılır. Əsas inamlar birbaşa bizim təcrübəmizi əks etdirir. O, hissi idrakların üç

---

[27] . Riçard Zglin, "Bütün dinlərə nəzarət ilahiyyatına doğru" tərcümə: Gəndomabadi, Din və təriqətlərin tədqiqat mərkəzi, 2001, s. 93

128. Qaiminiya Əlirza, "Dinşünaslıq", islami təbliğat ofisi, 2002, s. 71

[29] . həmin, s. 72

[30] . Maykel Peterson, "Ağıl və dinin inam", tərcümə: Nəraqi, 1998, s. 36

[31] . Məhəmməd İqbal Lahuri, "islamda dini təfəkkürün bərpası", tərcümə: Aram, Resaləti qeşm, bita, s.94.

hissəni yəni dərk edən, dərk edilən və peyda olanı dini təcrübəyə uyğunlaşdırmışdır.[32]

Bu üç hissənin birincisi təcrübə edən şəxs, ikincisi təcrübə edilən Allah və Allahın həmin şəxsdə təcəllisi və zühurudur. Deməli dini təcrübənin mötəbərliyi hissi idrakın mötəbərliyi qədər çəkiyə malikdir və dini inam və etiqadları əsaslandıra bilər.

Alston, bu məsələyə bir qeyd də əlavə edir ki, ümumiyyətlə dini təcrübənin mötəbərliyini çox həddə nəzərdə tutur və əksəriyyətin müstəsna olması baxımından onun dəlilini daxili istifadəsi etibardan salır.

Alstonun fikrincə böyük dinlərin hər biri nəticə çıxarma, dini inamların araşdırılması və təşkili üçün həmin təcrübəyə əsaslanan inkişaf etmiş elimi təlimlərdən faydalanmışlar. Deməli həmin təcrübələrə əsasən, o inamların hamısı əsaslandırılır. Con Hik dini təcrübə prinsipinin əhəmiyyətində dini inamlar və etiqadların əsaslandırılmasında Alstonla həmfikirdir. Lakin ziddiyyətli dini təcrübələrlə üzləşmə növbəsi çatanda baxışlar fərqlənir. Con Hik belə əsaslandırır ki, əgər ümumi dini təcrübənin inam sistemlərinin əsaslandırılması və təkamülü üçün möhkəm əsas olmasını qəbul etsək, onda bu baxış xristian ilahiyyatçı və filosoflarının fikri ilə ciddi şəkildə problemlə üzləşə bilər. Bu isə ondan ibarətdir ki, bu qneseoloji prinsipə əsasən yəhudilər, müsəlmanlar, induistlər və buddistlər bəzən və ya ümumiyyətlə xristian inam sistemi ilə ziddiyyətdə olan inanclara etiqadda zidd hərəkət etməkdə məntiqlə haqlıdırlar. Çünki Allah, Vişna, Şiva, az tanınan üç Allah yəni Brahman, Daharmakaya və Tao zahirən xristianlıqdakı trio kimi həmin möhkəm təcrübi əsasa malikdirlər.[33]

Deməli, əgər dini inamlar və etiqadlar üçün ən yaxşı əsas dini təcrübədə tapılırsa, onda dini təcrübə vasitəsilə dini inamın əsaslandırılması mötəbər olmalıdır. Bu məsələ ümumilik xarakterinə malikdir. Yəni dini təcrübə təkcə xristian ənənəsi inamlarını əsaslandırmır, əksinə onun himayəsində olan hər şeyi əsaslandırır. Deməli dini təcrübə bir-biri ilə ziddiyyətdə olan iddiaları əsaslandırır və onları himayə edir.[34]

Dini plüralizm məsələsi son dövr filosoflarının çox diqqət ayırdıqları kateqoriyalardandır. Hətta son dövrlərdə aktual bir mövzuya çevrilən **"Din dili"** problemi dissertasiyanın ikinci fəslinin beşinci paraqrafında təhlil edilir. Din fəlsəfəsinin tədqiqatı ilə məşğul olan alimlər bu kontekstə

---

32 . Vilyam P. Alston, "dini təcrübə" "Kiyan" jurnalı, No 58, 1999, s.17 və 18.

33 . Con Hik , "Qneseoloji tərəzidə dini plüralizm", İslami Mədəniyyət Nəşriyyatı, 1999, səh.286-287

34 . Məhəmməd Ləgnhauzen, "islam və dini plüralizm"tərcümə: Cəvandel, Müəssisəyi fərhəngi taha, 2000, s.54.

müxtəlif aspektlərdən yanaşmış və fərqli nəzəriyyələr yürütmüşlər. Bu nəzəriyyələrin ən əsası Con Hikə aiddir

Con Hikə görə ilahi mövzuların dili mifik səciyyə daşıyır və mifik cəhətdən layiqli reaksiya imkanına malik olur[35]. Əgər bu qayda reallıqda təsdiqini tapmazsa mifik cəhətdən düzgün olmaz. Bu miflər cavabı mümkün olmayan sualların cavabları kimidir.

Deməli, uca varlığa aid danışıqlar həqiqi mənada təzahür etmir. Yəni onlar uca varlığın cavab nümunələrini ifadə edirlər. Əslində, Hik mifalogiyanın reallığı təsdiqini inkar etmir. O, tutum və ləyaqət aspektindən təsdiqi əməl və davranış üçün münasib hesab edir.

Hik belə hesab edir ki, İudaizm, Məsihilik, İslam ənənəsində Allahın sonsuz olan bir varlıq kimi mövcud olması realist bir inancdır. Hik əlavə edir ki, onun dini realizmlə bağlı təsəvvürü dini danışıqlardakı ifadə vasitələr üçün ekvivalent hesab edilməməlidir. Çünki o, belə hesab edir ki, Allah anlayışı və s. mütləq anlayışlar xüsusi bir cəmiyyətin dilində formalaşmış anlayışlar sistemi əsasında yaranmışdır. Onun tənqidi realizmi ənənəvi dini təlimlərin sözlərdə ifadə etdiyi xam dini realizmdən fərqlənir. O, belə düşünür ki, dini təcrübə dairəsi tamamilə bəşəri təxəyyül deyil, bir mədəniyyətdən başqa bir mədəniyyətə qədər fərqlənən reallıq və ya uca varlığa aid reallıqlar qarşısında tanıma reaksiyalarının toplusudur.

Hikin realizm konsepsiyalarından belə nəticə almaq olar ki, o, dini dilə aid olan danışıqları tamamilə mif hesab etmir. Çünki reallıqdan xəbər verən bəzi dini xəbərlər reallıqla bağlı mənanı həqiqət formasında bəyan edir.

Hikin nəzəriyyəsi ilə əlaqədar onu deyə bilərik ki, onun din dilini mif kimi təqdim etmə istiqamətində göstərdiyi səylər öz təsdiqini tapmayana qədər əbəs hesab edilir. Çünki dini dil ilə bağlı qeyd edilən bu anlayış, nə indi, nə də gələcəkdə ilahi xəbərin daşıyıcısı kimi məlumatlandırma mənbəyi hesab edilə bilməz[36].

Dini dilin dini plüralizmlə bağlılığını və əlaqələrini müəyyən etmək üçün öncə bu nəzəriyyə banilərinin və onların davamçılarının bu əlaqə və bağlılıqla qeyd etdikləri fikirləri işıqlandırmaq daha yaxşı olardı. Filosofların dil ilə bağlı təsəvvürləri onların plüralizmin qəbulu və ya inkarı ilə bağlı irəli sürdükləri nəzəriyyələrlə sıx bağlıdır. Din dili nəzriyyəsini ifadəedicisi hesab edən filosoflar belə hesab edirlər ki, məzmunlar dil vasitəsilə ifadə edilir və dil həmin mənalar ilə tam uyğunluq təşkil edir. Dil

[35] Hick, John, Faith and Knowledge, nacmillan, 1957, P: 32.
[36] Ədnan Aslan. Səma yollarının dini plüralizmi. Tərcümə: Rəhməti, Cahan nəşriyyatı 1385, səh.144-148.

məlumatları tam ifadə etməlidir, simvollar başa düşülməlidir və s. Hər bir xəbər o dildə öz əksini tam şəkildə tapmayan bir reallığı ifadə etməlidir. Əgər fərqli xəbərlər arasındakı fərq simvollar fərqinə əsaslanarsa, bəzi filosoflara görə dini plüralizmə əsaslanır."[37]

İslamı kontekstdən dini dilin kimə aid olduğunu müəyyənləşdirmək lazımdır. Dr. Soruş belə hesab edir ki, sxolastların öz yanaşmaları ilə anlatdıqlarını yalnız onları tanıyanlar başa düşürlər. Belə ki, şəriət sabitdir, şəriət sahibi olan dünyanın hansı olduğu məlum olmayana qədər şəriətin nə dediyini anlamaq olmur. Bu, din dilinin hansı dünyaya aid olduğunu aydınlaşdırmağa çalışan din alimlərinin ən qiymətli çalışmalarıdır[38].

Ayətullah Sadiqi cavabında yazır: "Şəriət dilinin hansı dünyaya aid olduğunu bilmək üçün subyektiv fikirlərə deyil, şəriətin özünə və Qurana müraciət etmək lazımdır. Siz bu vaxta qədər "Bu insanların bəyanıdır" ayəsi haqqında düşünmüşsünüzmü? Quran bu dilin insanların özlərinə aid olduğunu bəyan edir. Siz sualınızı belə qeyd etdiniz ki, görəsən dinin dili sadə insanlara aiddir, ya alim və filosoflara? Siz cavab verməli idiniz ki, hər ikisi düzgündür. Çünki həm alimlər, həm də alim olmayanlar insandırlar. Quran da insana aiddir. Bütün insanlar Allah-taala qarşısında məsuliyyət daşıyır.

Deməli, Allah-taala elə bir dildə danışmalıdır ki, hamı öz vəzifəsini anlaya bilsin. Əgər belə olmazsa, insanlar üzərində heç bir vəzifə olmaz və Allah qarşısında heç bir məsuliyyət daşımazlar."[39]

**"İslamda və xristianlıqda dini plüralizm"** adlı III fəsil beş paraqrafdan ibarətdir. Dini plüralizmin mahiyyəti III fəslin birinci paraqrafda dini plüralizmin mahiyyəti ilə əlaqədar müəllif tərəfindən belə bir nəticəyə gəlinir ki, dini plüralizmdə dini etiqadlar insana məxsus əsas və müxtəlif mədəniyyət yolları daxilində olmuş, sonsuz həqiqət haqqında fərqli anlayış və təsəvvürləri ehtiva edir. Nəticədə ona nisbət müxtəlif reaksiyalara da malikdir. Həmçinin həmin dini ənənələrin daxilində insan varlığının özünə əsaslanmadan Allaha əsaslanmağa doğru dəyişiklik və inkişafı baş verir. Həmin məsələnin baş verməsi də insan müşahidələrində göründüyü səviyyədədir. Deməli belə hesab edilməlidir ki, böyük dinin ənənələri də axirəti qarşıya məqsəd qoyur və həmin proseslə bütün qadın və kişilər qurtuluşa və kamala nail olurlar.[40] Başqa sözlə qurtuluş və düz yola

[37] Məhəmməd Müctehidi Şəbüstəri. Dinin rəsmi oxunuşuna tənqid. Yeni layihə nəşriyyatı 1379, səh.384.

[38] Soruş. Şəriətin nəzəri izahı. Sirat mədəniyyət nəşriyyatı. 1386, səh.412.

[39] Sadiqi Tehrani. Din və təcrübə. Tənqid və nəzər dətgisi. İslam təbliğatı idarsi, № 3, 4. 1386, səh.137.

[40] - Con Hik "Din fəlsəfəsi", Tərcümə: Bəhram Rad, Əl Məhdi nəşriyyatı, 2004, səh.90

gəlmək üçün yalnız bir yol mövcud deyildir. Bu sahədə çeşidli və çoxlu yollar vardır.

Ümumiyyətlə dini çeşidlilik məsələsində üç əsas anlayış vardır. Bunlar exclusivim (xaricedicilik), inclusivizm (əhataədicilik) və dini plüralizmdir. Dini Exclusivism (xaricedicilik) təfəkkürü və inclusivism (əhataədicilik) təfəkkürünün dini plüralizm qarşısında rəqib olaraq araşdırılıb təhlil edilməsi ilə dini plüralizm təfəkkürü haqqında daha dəqiq fikir əldə edilir. Bu növ mübahisələrin tarixi ilk dəfə xristianlıqla bağlı olduğu üçün biz də bu yanaşmanı əvvəlcə xristianlıqda baş verdiyi kimi qeyd edirik. Exclusivism (xaricedicilik) təfəkkürünə görə dünyadakı bütün dinlər arasında yalnız bir din dini etiqad haqqına malikdir. Xilas, azadlıq, kamal, bir sözlə dinin son hədəfi kimi başa düşülən hər şey xas dininin və onun davamçılarının inhisarındadır. Digər dinlərin ardıcılları azğınlığa və bədbəxtliyə düçardırlar. Baxmayaraq ki, digər dinlər də həqiqətə uyğun olsalar da öz dini təlimlərində və özlərində əsl əxlaqi tərbiyəni inkişaf etdirsələr də, yenə də nicat və xilas sahilinə çata bilməzlər. Nicata qovuşmaq üçün gərək xilas yolunu tapsınlar.[41] Katolikləri "kilsə sərhədindən kənarda nicat və xilas yoxdur"[42] sözü katolik etiqadının ən çılğın və ən təsirli inhisarçılıq bəyanıdır.Bu baxımdan inhisarçılıq bir hadisə kimi təkcə xristianlığa aid deyildir. Məsələn, müsəlmanların da əksəriyyəti bu əqidədədirlər ki, müşriklər, (çoxallahlığa inanlar) xristianlar kafirdirlər. Əksər inhisarçılar inanırlar ki, təlim verən və ya onların dinlərinin əsasını qoyan peyğəmbər yeganə xəbər gətirəndir.

İnhisarçılıq bir xüsusi dinə, qrupa və ya məzhəbə aid deyildir. Əksinə, ümumən bir xalq inhisarçı hesab edə bilər. Çünki hər kəs öz dinini və öz məzhəbini daha yaxşı və daha kamil bilir, ona inanır.

Üçüncü fəslin üçüncü **"İslam inhisarçılığı"** paraqrafında müəllif göstərir ki, xilas təkcə kəlmeyi-şəhadət deməklə öz imanını möhkəmlətmək olmaz. İmanın zərurəti və itaəti var, mütləqə sözsüz itaət və tam qul olmaq, Allahın buyurduğu hər bir işi yerinə yetirmək gərəkdir. (Bilin) Mənim düz yolum budur, onu davam etdirin, O yollar ki (başqa yollar) sizi onun yolundan yayındırar, onu izləməyin, (Allahın) sizə sifariş etdiyi bunlardır, təqvaya tapınmalısınız(Əl-ənam.153). Bu prinsipi dərk etmək üçün müsəlmanların xeyir əməl şərtini qəbul etməsinə diqqət yetirməliyik. İslam dinində "Mostəzəəfin" (acizlər) termini ilə qarşılaşırıq:

(O şəxslər ki, özlərinə qarşı sitəmkar olmuşlar, mələklər onların

[41] Maykl Petrson "Ağıl və etiqad dini" . Tərcümə: Nerağı və Sultani, Enteşarat-e tərh-e no. 1377. ş.s. 403.

[42] . Can Heyk. "Din fəlsəfəsi", tərcümə: Bəhram Rad. Enteşarat-ol- Əhdi.1383. ş. S. 65.

canını götürəndə deyərlər: hansı halda idiniz? Cavab verərlər: biz yerdə acizlərdən idik. Deyərlər: Allahın yeri geniş deyildimi ki, orada mühacirət edəsiniz? Axı onların yeri cəhənnəmdir və (cəhənnəm) qorxuncdur. Onlar çarə tapa bilməyən, bir yol görməyən aciz kişilər, qadınlar, uşaqlar (bir sözlə üzrü olanlar) olacaqlar ki, Allah onlardan yan keçəcək. Çünki Allah daim xəta bağışlayan və öyrədəndir.) (Ən-nisa 97-99)

Bəhs olunan ayə bu mənanı verir ki, qüsurlardan və zəiflikdən ibarət olan dini maarifçilikdəki cəhalət və bu qüsur və zəifliyə dəxli olmayan cahil insanın özü Haqqın dərgahında üzrlü hesab olunacaqdır. Bu o deməkdir ki, Allah sübhandır, dində cəhaləti və dini kəlamların sübutuna hər cür maneəni zülm hesab edir, Elə bir zülm ki, o İlahinin əfvinə aid deyildir. O zaman müstəzəəfləri (kasıbları) bu ümumi qanundan azad edib, onların üzrünü qəbul edəcək ki, onlar zəif olsunlar.

Beləliklə aydın olur ki, islamda müstəsnalığın öyrənilməsi xüsusi təhlil və izah tələb edir və haqq-talanın fərmanları qarşısında təslim olmağa yönəlir. Qurani-kərimdə kitab əhlinin ictimai lənətə düçar olması, onların elm və yəqinə malik olmalarına baxmayaraq peyğəmbərin təklifini qəbul edib Haqq-tala qarşısında təslim olmağa hazır olmamaqları ilə əlaqədardır.

Üçüncü fəslin dördüncü paraqrafı **"İnkluzivizm"** adlanır. İnhisarçılıq təfəkkürünün əksinə olaraq inkluzivistlərin fikrincə həqiqət vahiddir və bütün dinlər həmin həqiqətin müxtəlif cəhətləridir.

İnkluzivistlərin fikrincə onların dinlərinə xas vəhy və ya xüsusi aydınlatma daha üstün və daha düzgündür. Lakin "dini dözümlülüyə" uyğun olaraq müxtəlif dini ənənələrdə tərbiyə edilən və az dini üstünlüyə malik olan şəxsləri mühakimə etmirlər".[43] Xristian inkluzivistlər inhisarçılar kimi yalnız bir dinin insanın düz yola getməsinə səbəb olmasına inanırlar. Hər kəs həmin dinə gəlib, onun göstərişlərinə tabe olub özünü onun qaydalarına riayət edirsə xristian olub olmamağından asılı olmayaraq Allahın diqqəti ona da nəsib olar və həmin şəxs qurtuluşa nail olar.

İslamın inkluzivizmə münasibətinə gəlincə ingilis ilahiyyatçı-filosofu Con Hikə görə Bəqərə surəsinin 15-ci ayəsini islamda inkluzivizmin təsdiqi kimi qeyd edir.[44] Qərb və şərq hər ikisi də Allahın mülküdür, deməli hansı tərəfə dönsəniz Allaha üz gətirmiş olacaqsınız. Allah hər şeyi əhatə edir və hər şeyi bilir.

Həqiqətin öyrənilməsi və ona nail olmaq dini cövhərin və insan

---

[43] . Con Hik, "Din fəlsəfəsi", Tərcümə: Rad, Əl Məhdi nəşriyyatı, 2004, səh.59

[44] . Radha Kriştan, "Şərq və Qərbdə din", Tərcümə: Firudin Qorqani, Osve nəşriyyatı, 1980, səh. 29-30

varlığında ruhi, mənəvi dəyişikliyin yaranmasına effektiv kömək edir. Mərifət ilahi və insani xüsusiyyətlərin əldə edilməsi üçün zəmin yaradır. Nə qədər həmin irfan və mərifət kamil olarsa, insanın tərbiyə yolu da düz olar və kamal eləcə də xilas mərhələlərində daha çox lazım rola malik olar. Zahirən qeyri-müsəlman dinlərinin mənsubları da öz dinlərinin təlimatına uyğun hərəkət edərlərsə, haqq tərəfdarı olma ruhunu özlərində gücləndirib, xilas və qurtuluş əhli olurlar. Lakin əgər onların dini davranış və əməlləri haqq dini yəni islamın ali dərəcələrinə uyğun həyata keçirilirsə ən əla dərəcəli xilasa nail olacaqlar.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır**.

**1.** Plüralizm və onun növləri. Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi. N0-16. Dekabr / 2011. Bakı.

**2.** Dini plüralizm və Qərbdə dini plüralizm yaranma səbəbləri. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Mədəniyyət Dünyası.XXII buraxlış, Bakı 2011

**3.** Xristianlıqda və İslamda xaricedicilik (EXCLUSİVİSM) anlayışı. Azərbaycan Respublikası Bakı Slavyan Universiteti Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.(Ali məktəblər arası elmi məcmuəsi). 2/2012

**4.** Религиозный плюрализм и разнообразие. Вестник МГУЛУ Спецвупуск 3(639) Москва-2012.

**5.** Плюрализм и ирфан в исламе. Российская Академия Наук Институт Языкознания. Кавказовдения. N 15/ Москва. 2010.

**6.** XX əsrdə din və elmin qarşılıqlı əlaqəsi. Elmi dəyişikliklər tarixində dinin rolu konfransının materiallları. Azad İslam Universiteti. Həmədən İran. tezis

**7.** Qloballaşma və onun İstiqamətləri. Tehran. Cami cəmşid nəşriyyatı. Tehran. 1389. 143.s.

**8.** Siyasi terminlər lüğəti. Avaye daneş gəstər nəşriyyatı. Tehran. 1384. 163.s.

**Гусейн Рза Набатали оглы Тахери**

# ОСНОВНЫЕ ФОРМЫ ПРОЯВЛЕНИЯ РЕЛИГИОЗНОГО ПЛЮРАЛИЗМА В ХРИСТИАНСТВЕ И ИСЛАМЕ

## РЕЗЮМЕ

В диссертации рассматриваются история зарождения религиозного плюрализма, его основополагающие понятия, формы его проявлений в христианстве и исламе. Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Первая глава озаглавлена **«Плюрализм и история религиозного плюрализма»**. В этой главе подробно исследуются плюрализм и его основные формы, его терминологическая и понятийная основа, а также, исследуются исторические и философские аспекты религиозного плюрализма на Западе.

Во второй главе – **«Основные понятия в осмыслении религиозного плюрализма»** преподносится трактовка некоторых понятий, тесно связанных с религиозным плюрализмом. Среди них можно перечислить такие понятия, как «ценность религии», «религиозный опыт», «язык религии», и так далее. Проясняется вопрос о принадлежности понятия «религиозный язык» в исламе. Высказывается точка зрения о том, что трактовка данного понятия схоластами может устраивать только их самих, но совершенно по-иному она осмысливается в исламе, в соответствии с нормами шариата.

В третьей главе диссертации – **«Религиозный плюрализм в христианстве и исламе»** – выявляется и анализируется сущность религиозного плюрализма в христианстве и исламе. Проводится сравнительный анализ понятий эксклюзивизма (exclusivizm) в христианстве и исламе. Отношение к инклюзивизму в исламе заключается в мысли о том, что как Восток, так и Запад являются собственностью Аллаха, а следовательно, куда человек не повернётся, он окажется перед лицом Аллаха. Аллах охватывает всё, и знает всё.

Также здесь детально исследуются схожие и отличительные особенности священных писаний других религий с точки зрения выше указанных аспектов.

В заключительной части диссертационной работы обобщаются её итоги, представленные в виде кратких тезисов. Автор приходит к

заключению, что если не мусульмане так же будут следовать предписаниямсобственных религий, то они укрепляют в себе дух истины и становятся на путь спасения. Но, если они всё же последуют в своих делах и поступках сообразно предписаниям и ценностям религии истины, то есть ислама, то они встанут на ступень спасения самомого высокого уровня.

**Huseyn Rza Nabatali oglu Tahiri**

## The basic forms of display of religious pluralism in Christianity and Islam

## Summary

In the dissertation the history of origin of religious pluralism, its basic concepts, forms of its displays in Christianity and Islam are considered. The dissertation consists of the introduction, three heads, the conclusion and the list of the used literature.

The first chapter is entitled **"Pluralism and history of religious pluralism".** In this chapter the pluralism and its basic forms, its terminological and conceptual basis are in detail investigated, and also, historical and philosophical aspects of religious pluralism in the West are investigated.

In the second chapter - **"The basic concept in understanding of religious pluralism"** presented interpretation of some concepts that are closely related to religious pluralism. Among them can be listed such things as "The value of religion", "Religious Experience", "The language of religion", and so on. Who is defined the Islam problem concerned of the "Religious language" from the context. It is expressed such opinion that persons which knew them understand explain with approach of the scholastics only. But this problem having according to completely in a different way and are accepted according to the Islam thought to shariat norms.

In the third chapter of the thesis - **"Religious pluralism in islam and christianity "** is detected and analyzed the essence of religious pluralism in Christianity and Islam. A comparative analysis of the concepts of exclusivism in Christianity and islam. Also, here similar and distinctive features of the sacred writing of other religions, from the point of view above the specified aspects are in details investigated.

In the final part of dissertational work its results presented in the form of short theses are generalized. Author comes to such conclusion in the last that if they move to the directions of the religions of belonging of other religions supporter of right has strengthened spirit of the being in them, man of rescue and salvation are possibles. But if their religious behaviour and actions are implemented suitablyand their religious behaviour and actions will achieve right that is to higher degree of the Islam to rescue with the highest degree religious.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ им. акад. З.М. БУНИЯТОВА**

*На правах рукописи*

**ГУСЕЙН РЗА НАБАТАЛИ оглы ТАХЕРИ**

# ОСНОВНЫЕ ФОРМЫ ПРОЯВЛЕНИЯ РЕЛИГИОЗНОГО ПЛЮРАЛИЗМА В ИСЛАМЕ И ХРИСТИАНСТВЕ

**7214.01** – История и философия религии

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по философии

**БАКУ - 2013**